**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 341**

**Bakı şəhəri, 3 avqust 2018-ci il**

**“Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 dekabr tarixli 199 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1014-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1924 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 dekabr tarixli 199 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 751; 2007, № 12, maddə 1336; 2009, № 1, maddə 32; 2016, № 4, maddə 797) ilə təsdiq edilmiş “Şərabçılıq məhsullarının istehsalı müəssisələrinin attestasiyası Qaydaları”nın on birinci abzasında “dövlət sanitariya-epidemioloji xidməti orqanlarının” sözləri “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin” sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**

Xalq qəzeti.- 2018.- 7 avqust.- S.2.